Hikmət Hacızadə

# DEMOKRATİYA HAQQINDA 150 000 İŞARƏ

## demokratiya və demokratik ənənə - biz bu haqda çox az bilirik

Bakı 1995

* * *

*İçindəkilər*

- Oxucuya. Dəyişməli, ya da yox olmalı

1. İSTİFADƏ EDƏCƏYİMİZ ƏSAS ANLAYIŞLAR
   - Demokratiya - bu ...
   - Konstitusiyanın mahiyyəti

2. BÖYÜK AMERİKA EKSPERİMENTİ
   - Kim idarə etməlidir - Dövlət, yoxsa cəmiyyət? (Mülki və Siyasi cəmiyyətlər)
   - Amerika vətənpərvərliyi
   - Demokratiyanın dini kökləri

3. QƏDİM YUNANISTANDA DEMOKRATİYA VƏ TOTALİTARİZM
   - Afinalı Perikl - açıq cəmiyyətin müdafiəsinə dair
   - Afinalı Platon - açıq cəmiyyətin əleyhinə

4. LİBERALİZMİN BEŞİYİ - İNGİLTƏRƏ
   - "Krallığımızın bütün azad insanlarına ..."
   - Magna Carta (1215-ci il)
   - Hüquqlar haqqında Bill (Bill of rights) (1689-cu il).

5. İNSAN HAQLARI BİRLİK ÜÇÜN YENİ ƏSASDIR
   - İnsan haqları ziddiyyətləri yumşaldır
   - İnsan haqları və millətin tərəqqisi
   - İnsan haqları və müstəqillik
   - İnsan haqları və Bitərəflik müstəqilliyimizin əsası kimi.
   - İnsan haqları və ölkədəki etnik konfliktlər
   - Millətçilik ikibaşlı sözdür
   - Etnik millətçilikdən dövlət-millətə doğru
   - İnsan haqları və beynəlxalq münasibətlər
   - İnsan haqları - Amerika təcrübəsi
   - Soljenitsın qayıdıb
   - İnsan haqları və barışmalı olduğumuz qarışıqlıq

6. ÖZÜNÜİDARƏ
   - "Səpələnmiş bilik" nəzəriyyəsi
   - AXC-nin birinci Nizamnaməsi - özünüidarənin ilk təcrübəsi
   - Sadə seçiciyə müraciət

7. KONFLİKTLƏRİN DİNC YOLLA HƏLLİ ÖZÜNÜİDARƏNİN ƏSASLARINDAN BİRİDİR
   - I lost my self-control (Mən özümənəzarəti itirdim)

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

- Özünüidarəedən cəmiyyətdə konflikt və kompromislər. Demokratın etikası
- Lefevr ümumiləşdirir
- Savaşa məhkum olunmuşlar?

8. DEMOKRATİK CƏMİYYƏT
   - Demokrat müəyyən qayda ilə davranmalıdır
   - T.Hobbsun “Sülh qaydaları”
   - Demokrat heç də bizim düşündüyümüz kimi deyil...
   - Privacy - bizə naməlum olan ənənə
   - Termodinamikanın ən çox xoşlamadığım üçüncü qanunu
   - Qlobal düşün, lokal hərəkət et
   - İnformasiya demokratiyanın danışdığı dildir
   - Amerika jurnalistikasında mühakimələr deyil, tədqiqat qiymətləndirilir
   - “Şanlı yeni dünya” Brave New World

9. DEMOKRATİYA VƏ RASİONALİZM
   - “Qərb Qərbdir, Şərq isə Şərq və onlar bir-biri ilə uyuşa bilməz”. Niyə?
   - Frensis Bekonun məsləhətləri bu gün də bizim üçün aktualdır
   - Fransa inqilabının məqsədləri ... və bu gün biz beləyik
   - Şübhə rasional idrakın əsasıdır
   - “Qəsdlər nəzəriyyəsi”
   - Klassik liberalizmin əsasları
   - Liberalizmin rasional doktrinası
   - Konservatizm
   - Britaniyada ilk liberallar və konservatorlar

10. TARİXİLİYİN TƏNQİDİ (K.POPPER)
    - Keçmiş SSRİ ölkələrinə Karl Popperin məsləhətləri
    - K.Popperin proqramı

11. DEMOKRATİK DALĞANIN UĞURSUZLUĞUNUN SƏBƏBLƏRİ HAQQINDA
    - Növbəti seçkilərdə kimə səs verəcəklər?
    - Siyasi sistem: daxildən baxış
    - Demokratik islahatların başlıca səhvi

12. DEMOKRATİYANIN ÜÇÜNCÜ DALĞASI
    - SON SÖZ, Demokratiya ilk növbədə insanlardır...

* * *

# Demokratiya Haqqında 150 000 İşarə, Hikmət Hacızadə

*Bu kitab təxminən 150 min işarədən ibarətdir və mən onu demokratiya haqqında ilk kitabı oxuyacaq adama ithaf edirəm.*

**Oxucuya**

DƏYİŞMƏLİ, YA DA YOX OLMALI

“Mən demokratam!” Lakin biz getdikcə daha çox inanırıq ki, bu cümlə sual işarəsi ilə bitməlidir. Başlanğıcdan hərəkatımızı bizim üçün yeni olan demokratik prinsiplər əsasında qurmaq cəhdlərimiz keçilməz maneələrlə qarşılaşdı. Bəlli oldu ki, ənənə və həyat təcrübəmiz proqramlarımızda bəyan etdiyimiz yeni ictimai və siyasi sistemə uyuşmağımıza ən azı yardımçı olmadı.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Bəlli oldu ki, bizdə özünüidarə, mədəni rəqabət, müxtəlifliyə dözüm, münaqişələri sülh yolu ilə həll etmək və özümüzün müəyyənləşdirdiyimiz qayda-qanunlara ardıcıllıqla əməl etmək vərdişləri və təcrübəsi yoxdur.

Biz bunu çox gec anladıq. Tamamilə aydındır ki, demokratların uğursuzluqları şəksiz uğurları ilə birlikdə başlıca olaraq ənənələrimizin yeni tələblərə - qurmaq istədiyimiz "Açıq cəmiyyətin" tələblərinə uyğun gəlməməsi ilə bağlıdır.

"Ənənələrimiz yaxşıdır, ya pis və niyə belədir?" sualının cavabını burada müzakirə etməyəcəyik. Mən bugünkü ənənələrimizi və mentalitetimizi 180 illik müstəmləkəçiliyin nəticəsi hesab edənlərlə razılaşmağa hazıram... "Ənənələrimiz pis və ya yaxşı ola bilməz, onlar bizimkidir, bizim daxilimizdən gəlir və bununla hər şey deyilir" fikri ilə razılaşmağa isə daha çox hazıram...

Lakin bu gün biz özbaşına deyilik və dünyadan nə uca dağlar, nə də "Dəmir pərdə"lərlə təcrid olunmamışıq. "Dəmir pərdə" aradan götürülüb və dünya bizim üçün hədsiz dərəcədə genişlənib. Bu gün biz millətlərarası yarışa girmişik. Ya torpağımızı müdafiə etmək, daha yetkin, yalan və zülmdən azad cəmiyyət qurmaq üçün oyunun yeni qaydalarına uyğun dəyişməli, ya da indi olduğumuz kimi qalıb, nəticədə bir millət kimi yox olmalıyıq...

Burada mümkün olmayan heç nə yoxdur. Görün, 1988-ci ildən bəri cəmiyyətimiz necə güclü inkişaf edib. Cəmiyyətdə nə yasaqlana, nə də danıla bilən ilk demokratik ənənələr yer tapıb. Demokratların məqsədyönlü səyləri hesabına bu gün bütün dünyada Azərbaycana demokratiyanın böyük perspektivləri olduğu cəmiyyət kimi baxırlar. Lakin etiraf etməliyik ki, bu gün biz müasir plüralist demokratiyanın mahiyyətini və praktikasını tam dərk etməkdən hələ uzaqıq.

İnsan, cəmiyyət və dövlət üçün həyati əhəmiyyət kəsb edən qlobal problemləri demokratiya nəzəriyyəsi necə həll edir? Demokrat məişətdə nə etməlidir? Çox güman ki, məsələn, müsəlmanlıq kimi demokratiyanın da başlıca qaydaları və ənənələri var ki, yalnız bunlara əməl etməklə tam hüquqla demokrat adını daşımaq və demokratik cəmiyyət qurmaq mümkündür. Biz bu qaydalar barədə çox az bilirik...

# 1. İSTİFADƏ EDƏCƏYİMİZ ƏSAS ANLAYIŞLAR

**Demokratiya - bu...**

* Demokratiya - çoxluğun hakimiyyəti (Qədim yunan tərifi).

* Liberal demokratiya - sülh vaxtı insan haqları ilə məhdudlaşan çoxluğun hakimiyyəti (müharibə vaxtı insan haqlarını demokratik yolla qəbul olunmuş qanunlar məhdudlaşdırıla bilər).

Yunan demokratiyasının müasir, liberal demokratiyadan köklü fərqi qədim Afinada insanın şəxsi haqlarının alınmazlığı anlayışının olmamasındadır. Bu isə ona gətirib çıxarırdı ki, icma üzvlərinin səs çoxluğu ilə insanı mülkiyyətdən, vətəndaşlıqdan, hətta həyatdan məhrum etmək, əqidəsinə və şəxsi həyat tərzinə görə mühakimə etmək olardı. Liberal demokratiya isə hesab edir ki, heç bir çoxluq insanı şəxsi haqq və azadlıqlardan məhrum edə bilməz.

Başqa sözlə, xalqın səsi Allahın səsi deyil. Xalqın rəyi şəxsi haqların məhdudlaşdırılması üçün əsas ola bilməz.

* DEMOKRATİYA insanın şəxsi və siyasi azadlıqları və (demokratik yolla qəbul edilmiş) qanunun aliliyi deməkdir (Avropa Şurasının qəbul etdiyi tərif).

* AZADLIQ (qısa desək) seçim azadlığıdır (həyatda sərbəst yol seçmək).

LİBERAL DEMOKRAT azadlığı ən ali dəyər hesab edir. Azadlıq firavanlıqdan üstündür. Liberal demokrat üçün onun azadlığı digər şəxsin hüquqları başlanan yerdə bitir.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Liberal demokrat hesab edir ki, hər bir insanın doğulduğu andan etibarən yaşamaq, azad olmaq, xoş-bəxtliyə can atmaq (öz vəziyyətini yaxşılaşdırmaq) kimi alınmaz haqları var və heç bir dövlət, millət, sinif (və digər qrup) maraqları insan haqlarını və azadlıqlarını məhdudlaşdırılması üçün əsas ola bilməz. Buna görə bu haqlar alınmaz adlandırılır.

* LİBERALİZM insan haqlarını qrupların (təşkilat, cəmiyyət, millət, dövlət) maraqlarından üstün hesab edən siyasi fəlsəfədir (bu, Avropa Şurasının ona üzv olan ölkələrə əsas tələbidir).

* LİBERALİZM cəmiyyət və insanın işlərinə dövlətin müdaxiləsini hər vəchlə məhdudlaşdırmağın tərəfdarıdır. Liberalizmin məqsədi: "Daha az dövlət"; dövlət deyil, cəmiyyət idarə etməlidir. Daha dəqiq olsaq: cəmiyyətin buna hazır olduğu hər yerdə dövlət idarəçiliyi ona verməlidir.

* LİBERALİZMİN bütün nəzəriyyəsi və praktikası bir başlanğıcdan - Mənlik, Ləyaqət (Dignity - ing.) deyilən əxlaqi keyfiyyətdən doğub. Çağdaş demokratiyada nə varsa, ondan başlanır ki, boyunduruq altında olan insanın qaranlıq dünyasında bir fikir ildırım kimi şığıyır: "Mən insanam... Mənim ləyaqətim var. Məni alçaltmağa, susdurmağa, əvəzimə taleyimi həll etməyə Heç kimin haqqı yoxdur. Öz Ləyaqətimi qorumaq üçün mən Qeyrətə gəlməliyəm...".

Liberalizmin azərbaycanlı ruhunda nəyə uyğun gəldiyini açıqlasaq, deyə bilərik ki, o, "Ləyaqətçilik" və "Qeyrətçilik" məfkürəsinə uyğundur. Şübhəsiz, burada Ləyaqət bizdəkindən geniş mənada götürülür - şəxsi ləyaqəti, ailə ləyaqətini və vətəndaş ləyaqətini cəmləşdirir; insan öz Ləyaqətini qorumaqla yanaşı, başqasının da Ləyaqətini tanımalıdır.

Çağdaş demokratik hərəkatın əxlaqi devizi "Hamı üçün Ləyaqət!"dir ("Dignity for all").

* LİBERALİZMİN sosial prinsipi: "Hər kəsə əməyinə görə...",

SOSİALİZMİN: "hər kəsə tələbatına görə... ",

ARİSTOKRATİZMİN: "Hər kəsə xidmətlərinə görə"dir (söhbət keçmiş xidmətlərdən gedir).

* BƏRABƏRLİK (imkanların bərabərliyi) demokratiyadan irəli gələn birinci və ən əsas prinsipdir. Bərabərlik demokratiyanın əsas tələbi və demokratik mübarizənin başlıca məqsədlərindən biridir.

Bütün insanlar bərabər doğulur və insanlararası münasibətlərdə heç kəsin üstünlüyü olmamalıdır; hər bir insan hamı üçün bərabər Azadlığa, bərabər haqlara və qanun qarşısında bərabər məsuliyyətə malikdir.

*"Biz bütün insanların bərabər doğulmasını və Tanrının onlara həyat, azadlıq və xoşbəxtliyə can atmaq kimi alınmaz haqlar bəxş etməsini şəksiz həqiqət hesab edirik" (Tomas Cefferson, ABŞ-ın Müstəqillik Bəyannaməsi, 4 iyul 1776).*

*İnsanların bərabərliyi* prinsipi özünüidarəedən cəmiyyətin əsas mənəvi qanununu doğurur: "Özünə rəva bilmədiyini başqasına etmə" (mənəviyyatın "Qızıl qanunu"). Bu qanunlar qanunu demokratik cəmiyyətdə qarşılıqlı maraqları uzlaşdırmaq və münaqişələri uğurla həll etmək imkanı yaradır.

* Xüsusi qeyd edək ki, insan Haqları uğrunda mübarizə, əsasən, dövlətin insana münasibətdə yol verdiyi özbaşınalıqlara qarşı mübarizədir.

**Beləliklə, demokratiya - bu...**

Beləliklə, özünü demokrat sayan hər kəs demokratiyanın üç əsas müddəasını qəbul etməlidir:

***1. İqtidar (idarəetmə) səsvermə ilə*** seçilənlərdə olmalıdır, yuxarıdan təyin olunanlarda yox.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Başqa sözlə, demokrat özündə belə bir təbii qorxunu dəf edib ki, səsvermə nəticəsində hakimiyyətə “nalayiq” adam gələ bilər, çünki seçilmiş adam, hər halda səsvermənin nəzarəti altında qalır. Və beləsi yuxarıdan təyin olunan amma səsvermə nəzarətindən qırıqda durmuş “ləyaqətli” adamdan daha yaxşıdır.

***2. İnsan haqlarının aliliyi.***

Heç bir ictimai, milli və ya dövlət maraqları (sülh dövründə) insanın şəxsi və siyasi haqlarını pozmağa əsas ola bilməz.

***3. Qanunun aliliyi. “Qanunda azadlıq”***

Bütün prosedurlar (demokratik şəkildə qəbul olunmuş): reqlamentlər, qaydalar, qanunlar qeyd-şərtsiz yerinə yetirilməlidir. Qanunu pozmaq olmaz, dəyişmək isə (demokratik yolla) olar.

**Konstitusiyanın mahiyyəti**

Demokratiya klassiklərinin fikrincə, insan kamil deyil, təbiətcə xudbindir və ona tamamilə etibar etmək olmaz. İstənilən adama hakimiyyət ver, o bundan qərəzli məqsədlər üçün bəhrələnmək imkanını əldən buraxmayacaq, ətrafındakıların hamısına zülm etməyə başlayacaq. Buna görə də, Lokk və Monteskyönün ardınca Amerika Konstitusiyasının müəllifləri və ilhamçıları hesab edərdilər ki, hər bir hakimiyyət, hökumət nəzarət altında olmalı və onun insanı istismar etmək və şəxsi işlərə qarışmaq imkanları məhdudlaşdırılmalıdır.

KONSTİTUSİYA, onun başlıca (ilkin, amerikasayağı) mahiyyəti, onun canı, dövlətin fəaliyyət prinsipcələrini müəyyənləşdirən və dövlətin insan üzərində hakimiyyətini məhdudlaşdıran əsas qanundur. ABŞ konstitusiyasında belə məhdudiyyət, ilk növbədə “hakimiyyətlərin bölünməsi”, onlara “müqabil və balans” sistemi (qanunvericilik, icraedicilik və məhkəmə hakimiyyəti arasında qarşılıqlı nəzarət) və insan haqları müddəaları əsasında əldə olunur.

Sovet konstitusiyalarından bizə tanış olan “insanın söz azadlığı hüququ var”... (və s.) müddəasından fərqli olaraq, “insan doğulduğu andan alınmaz Azadlıq haqları var” liberal prinsipinə uyğun yazılmış ABŞ Konstitusiyası bəyan edir ki, “Konqresin hər hansı dini bərqərar etməyə, söz və yığıncaqlar azad-lığını məhdudlaşdıran qanunlar qəbul etməya haqqı yoxdur”.

* Son 2-3 yüzildə sivilizasiyalı dünyada bütün siyasi hərəkatların daxili mahiyyəti şəxsiyyətin rəsmi kilsə və dövlət əsarətindən tədricən azad olunmasına, şəxsi haqların genişlənməsinə və möhkəmlənməsinə, dövlətin bunları rəsmiləşdirməsinə yönəldilib.

* ... İngilislərin mütləqiyyətə qarşı Magna Cartadan (1215) başladıqları uğurlu mübarizəsi məşhur Habeas Corpus Act (1679)-ın (Şəxsi Toxunulmazlıq Aktı) qəbul olunması ilə nəticələndi:  azadlıqdan məhrum edilməsini qanunsuz sayan şəxsin, həbsin qanuni olub-olmamasını yoxlamaq üçün dərhal məhkəməyə (şəxsən və ya vasitəçi ilə) müraciət etmək hüququ var.

Demokratlar hökuməti də (1992-1993) bu fundamental hüquqi normanı həyata keçirməyə hazırlaşırdı. Bu məsələ ilə bağlı bütün dövlət aktlarının layihələri hazırlanmışdı, lakin taleyin hökmü başqa cür oldu...  Nəticədə, prokurorun cəmiyyət üçün xüsusilə təhlükəli hesab etdiyi adamlar məhkəmənin qərarı olmadan bir il və daha çox həbsxanalarda yatırlar.

## 2. BÖYÜK AMERİKA EKSPERİMENTİ

**Kim idarə etməlidir - Dövlət, yoxsa Cəmiyyət? (Mülki və Siyasi cəmiyyətlər)**

“Hər bir xalq öz başçısına layiqdir”, “Heç bir təşkilat onu təşkil edən üzvlərdən yaxşı ola bilməz” kimi hamıya bəlli olan kəlamlar, yaranmış vəziyyət üçün kimin - başçının, siyasi sistemin, yaxud hamının birlikdə və hər kəsin ayrılıqda - daha çox məsuliyyət daşıması haqqında düşüncələrdən yaranıb; yalnız diktatoru devirmək və yeni eranın başlandığını elan etməklə ədalət və firavanlığa çatmaq mümkündürmü?

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Demokratiya nəzəriyyəsi bu suala birmənalı cavab verir. Sistem insanları formalaşdırmır, əksinə, onların mənəviyyatı, düşüncə tərzi, qarşılıqlı münasibətləri, istehsal üsulu, siyasi sistemi və hökm-darın tipini müəyyənləşdirir.

**Dövlət - forma, cəmiyyət isə məzmundur.**

Xalq böyük həvəslə əvvəlcə Elçibəyə, sonra isə onun tam əksi olan H.Əliyevə səs verdi. Lakin onların hər ikisindən eyni şeyi tələb edirdi: “Prezident tezliklə və bizim səyimiz olmadan müharibəni udmalı, ədaləti bərqərar etməli və camaatı yedizdirməlidir.”

Demokratiyanı qurmağın mümkünsüzlüyü məhz “bizim səyimiz olmadan” anlayışı ilə bağlıdır... Demokratik olmayan xalq demokratik sistem formalaşdıra bilməz - bu sistem (digərləri kimi) yuxarıdan formalaşdırılmır. Hökumət xalqı aldadır?.. Gəlin razılaşaq ki, yalnız aldanmaq istəyən xalqı uzun müddət aldatmaq olar.

Demokratik ölkə hökumət fərmanları ilə idarə olunmur, onu “mülki cəmiyyət” (1) idarə edir, daha dəqiq desək, o, öz-özünə idarə olunur.

---

*(1) MÜLKİ CƏMİYYƏT cəmiyyətdəki qeyri-siyasi qarşılıqlı münasibətlərin məcmusudur.*

*SİYASİ CƏMİYYƏT cəmiyyətdəki qarşılıqlı siyasi münasibətlərin məcmusudur.*

*Mülki (Civil society) və siyasi (Political society) cəmiyyətlər özünüidarəedən cəmiyyət nəzəriyyə-sinin fundamental anlayışlarındandır. Bu səbəbdən də onların üzərində ətraflı dayanaq.*

*Bu terminlərdən “mülki cəmiyyət” ifadəsi çox vaxt oxucuları çaşdırır və onlar “mülki cəmiyyət”i demokratiya və bazar münasibətlərinin inkişaf etdiyi insan birliyi kimi başa düşürlər.*

*Əslində isə “mülki cəmiyyət” termini hər hansı bir insan birliyinin deyil, insanlar arasındakı qarşılıqlı münasibətlərin məcmusunu ifadə edib.*

*Beləliklə, cəmiyyətdəki qeyri-siyasi qarşılıqlı münasibətlərin məcmusu “Mülki cəmiyyət” adlanır. “Qeyri-siyasi qarşılıqlı münasibətlər” dedikdə dövlət tərəfindən idarə olunmayıb, cəmiyyət (dövlətin etibarlı hüquqi təminatına malik) üzvlərinin qarşılıqlı razılaşması və öz aralarında qəbul etdikləri yazılmamış qanunlar əsasında həyata keçirilən münasibətlər nəzərdə tutulur.*

*Məsələn, dəfn mərasiminin təşkili dövlətin müdaxiləsi olmadan baş verirsə, bu, Mülki cəmiyyətin təzahürüdür (yada calaq ki, kommunistlərin ağalıq etdikləri totalitar cəmiyyətdə dövlət adamlara öz yaxınlarını necə dəfn etmək barədə göstərişlər verirdi). Beləliklə, Mülki cəmiyyət həmişə var, lakin bizdə o, inkişafsız vəziyyətdədir. Amerika cəmiyyətində isə o, minimal sosial təminat, təhlükəsizlik və xarici siyasət istisna olmaqla, demək olar, bütün həyati məsələləri həll edir.*

*Uzun müddət dövlətçilikdən məhrum olunmuş bir çox xalqlarda (yəhudilər, ermənilər və b.) qeyri-adi dərəcədə inkişaf etmiş Mülki cəmiyyət bütün problemləri həll edirdi. Müasir dövrdə dövlətçiliyini bərpa etmiş həmin xalqların qazandıqları uğurların əsas səbəblərindən biri də Mülki cəmiyyətin (özünüidarənin) yüksək səviyyəsidir...*

*Liberal demokratiya yalnız inkişaf etmiş Mülki cəmiyyət olan yerdə mümkündür.*

“Sıravi seçici”: “Biz hökuməti seçdik, qoy işləsin biz də baxaq”, - deyir, lakin “demokratik cəmiyyətin idarə olunmasında xalqın rolu seçkilərdə adi səsvermədən daha böyük olmalıdır” (V.Ostrom “Amerika federalizminin mahiyyəti”).

1831-ci ildə ABŞ-a səyahətə çıxmış böyük Fransa politoloqu A.Tokvill özünün “Amerikada demokratiya” adlı fundamental əsərində məhz bu “böyük mətləblərdən” bəhs edir.

“ABŞ-a səyahətə çıxan avropalını ən çox heyrətləndirən, bizdə “hökumət” və ya “müdiriyyət” adlandırılan şeyin burada olmamasıdır... Amerikada yazılı qanunlar var ki, onlar gündəlik həyatda hiss olunur. Sizin ətrafınızda hər

HİKMƏT HACIZADƏNİN KİTABXANASINDAN Arxiv 2025

şey fasiləsiz hərəkətdədir, lakin bu hərəkətin mənbəyi heç yerdə gözə dəymir. İctimai mexanizmi idarə edən əl həmişə diqqətdən kənarda qalır. Burada cəmiyyət yetərincə müstəqildir və özünü idarə edir...".

Demokratik idarə sistemində qərarlar qəbul edən çoxlu mərkəz fəaliyyət göstərir: mərkəzi hökumət, yerli özünüidarə orqanları, çoxsaylı könüllü assosiasiyalar, ictimai təşkilatlar, klublar, klanlar, ailələr, ayrı-ayrı şəxslər. Bunlardan da hər birinin qərar qəbul etmək öz qaydaları var. Bu mərkəzlər maraqlarını hüquqi təminatı olan qarşılıqlı razılaşma əsasında uzlaşdırır (maraqlıdır ki, burada məhkəmə hətta evlənmək haqqında verilmiş vədi pozmaq barədə ittihamı icra üçün qəbul edir).

Mərkəzi hökumət ölkəni sözün dar mənasında idarə edir: öz problemlərinin həllində başlıca rolu burada adamlar özləri oynayırlar. Qeyd edək ki, bundan əlavə, "Dövlətin belə az olduğu" ABŞ-da icra və məhkəmə sistemində, demək olar, bütün vəzifələr seçkilidir...

A.Tokvill Amerikada gördüklərini "Prinsipcə yeni təməllər əsasında yaratmaq üzrə böyük eksperiment" adlandırıb. Bəşər tarixində ilk dəfə olaraq ölkəni dövlət deyil, cəmiyyət idarə edirdi. Bu cəmiyyətin üzvləri öz aralarında saziş bağlayaraq ona əməl etmək haqqında öhdəlik götürüblər. Həmin saziş aşağıdakı sözlərlə başlanırdı:

> *"Biz - Birləşmiş Ştatlar xalqı, daha mükəmməl İttifaq yaratmaq, ədalət məhkəməsini bərqərar etmək, daxili sakitliyə təminat vermək, birgə müdafiəni təmin etmək, ümumi firavanlığa yardım göstərmək, özümüz və xələflərimiz üçün azadlıq səadətini möhkəmləndirmək məqsədilə Birləşmiş Ştatlar üçün hazırkı Konstitusiyanı təntənə ilə bəyan və təsis edirik".*

Bəziləri düşünə bilərlər ki, bu mətndə əhəmiyyətli nə var ki? Gözəl ifadələrlə dolu belə müqavilə və Konstitusiyaları biz çox görmüşük. Lakin bu mətnin çox maraqlı tarixçəsi var. O, ingilis kolonistlərinin Amerika qitəsinə mühacirətinin lap başlanğıcı ilə səsləşən tarixi fon və hadisələrlə əlaqədardır.

Yadda saxlamaq lazımdır ki, ilk amerikalılar - rəsmi kilsənin təqibləri ucbatından İngiltərəni tərk etmiş, vicdan azadlığı uğrunda çıxış edən dini dissidentlər idilər.

Təqiblərdən Hollandiyada gizlənən dissidentlər "May flower" ("May çiçəyi") gəmisini icarəyə götürərək, 1620-ci ildə həmin gəmidə Atlantik okeanını üzüb keçdilər. Naməlum sahilə enməzdən əvvəl onlar qarşılıqlı razılaşma əsasında bir sənəd tərtib etdilər. Tarixi əhəmiyyətinə görə, ingilislərin "Böyük Azadlıqlar Xartiyasına", fransızların "İnsan və Vətəndaş hüquqları Bəyannaməsinə bərabər olan həmin sənəddə deyilirdi:

> *"... Göstərilən müqavilə ilə biz Allah və bir-birimiz qarşısında mülki orqanizmdə birləşirik ki, aramızda qayda-qanun bərqərar olsun... Buna görə də biz ədalətli və hamımız üçün bərabər qanunlar..., eləcə də koloniyamızın rahatlığı və rifahı üçün vaxtaşırı zəruri ola biləcək vəzifələr təsis edəcəyik ki, bunlara da riayət edib tabe olmağı vəd edirik".*

Əsarətdən qaçmış adamların bağladığı bu müqavilə (May flower Compact), hökumət tərəfindən deyil, kollektiv surətdə özünü idarə edən cəmiyyət quruculuğu sahəsində Böyük Amerika eksperimentinin əsas mərhələlərindən birini təşkil edir.

Konnektikut, Rod-Aylend və Yeni İngiltərənin başqa yerlərində özünü idarə edən koloniyaların əsasını qoyan digər siyasi və iqtisadi mühacirlər də konstitusiyanın müjdəçisi olan belə müqavilələr imzalamağa başladılar. Bütün bu müqavilələrə adamların qanun qarşısında bərabərliyi, özünüidarə, şəxsi azadlıqlara dövlət və cəmiyyətin müdaxiləsinin yolverilməzliyi haqqında müddəalar daxil idi...

Bizim bəzi dinçilərin diqqətini ona cəlb etmək istəyirəm ki, hakim dairələrin təqiblərindən Amerikaya qaçıb, Rod-Aylenddə koloniyanın əsasını qoymuş dini dissidentlər 1663-cü ildə İngiltərə kralının fərman verməsinə nail oldular. Həmin fərmanda da onların tələbləri öz əksini tapmışdır:

> *"Heç bir şəxs... bundan sonra və əbədi olaraq, dini fikir ayrılıqları ilə bağlı mülahizələrə görə narahatlıq və ya şübhəyə məruz qala bilməz".*

Bu sitatdan göründüyü kimi, dini öz bildikləri kimi anlamaq uğrunda mübarizə aparanlar heç də dinin yalnız onlar tərəfindən qəbul olunmuş formasını bərqərar etməyi tələb etmirdilər; xeyr, onlar DİNİ ETİQAD AZADLIĞI tələb edirdilər!

Pensilvaniyanın əsasını qoymuş Uilyam Penn yazırdı ki, Nyu-Cersi koloniyasının elə həmin vaxt qəbul olunmuş konstitusiyası "İnsan azadlığı haqqında gələcək anlamın bünövrəsini qoymuş oldu ki, həmin anlama görə, hakimiyyət xalqa verildiyi üçün, xalq öz razılığı olmadan itaətdə qala bilməz".

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Beləliklə, Amerika Konstitusiyasını xalqa "yuxarıdan" - onun müasiri olan siyasətçi və filosoflar təklif etməyiblər. O, uzunmüddətli ictimai özünüidarə eksperimentinin nəticəsi kimi meydana çıxıb...

* Amerika cəmiyyətini təhlil edən A.Tokvill onun fəaliyyətini anlamaq üçün bu cəmiyyətin tərəfindən demokratik respublika yaratması baxımından əhəmiyyətli olan üç amili nəzərdən keçirir (bu elə bizim əsas vəzifəmizdir - H.H.).

> *Birinci - Amerika kolonistlərinin təsadüfün hökmü ilə düşdükləri xüsusi vəziyyət (feodal ənənələrinin olmaması, xüsusi insan materialı, zəngin və məskunlaşmamış qitənin maddi şəraiti).*
>
> *İkinci - "qanunlar" (ABŞ Konstitusiyası və hüquqi cəhətdən təsbit olunmuş digər demokratik institutlar).*
>
> *Üçüncü - İnsan davranışını müəyyənləşdirən "adət və dəblər" (əxlaq, ənənə), "qəlb vərdişləri" və "zəka vərdişləri" ( idrak üsulu).*

Bu zaman Tokvill, insan fəaliyyətini müəyyənləşdirən "qəlb və zəka vərdişlərini" demokratiyanı formalaşdıran ən mühüm amil hesab edirdi.

Özünüidarə və demokratiya yalnız o zaman mümkün ola bilər ki, həmin "Qəlb və zəka vərdişləri" rasional (ağıllı, elmi), əxlaqi olsun, hamı üçün bərabərlik və seçim Azadlığını (həyatda sərbəst yol seçmək) qəbul etsin; mənəviyyatın "Qızıl qanun"una tabe olsun, münaqişələri qansız həll etməkdə insanlara kömək etsin. İnsanlar arasındakı qarşılıqlı maraqların uzlaşdırılması və münaqişələri həll etmək üsulları demokratik respublikanı yaradan özünü idarə edən cəmiyyətin əsasını təşkil edir.

**Amerika vətənpərvərliyi**

> *"Amerika vətənpərvərliyi torpağa və insanlara deyil, ictimai həyatla təmasda olan ideyalar sisteminə, öz müqəddəratını təyin etmə tələbatı ilə dolub daşan sistemə doğru yönəlmişdir". (Q.Münsterberq)*

**Demokratiyanın dini kökləri**

İnsanların imkan bərabərliyi demokratiyanın əsas tələbi və demokratik mübarizənin başlıca məqsədlərindən biridir.

Tarix göstərir ki, sivilizasiyanın yarandığı andan etibarən Bərabərlik uğrunda mübarizə gedir və bu mübarizə dünyanın ən demokratik cəmiyyətlərində belə bu gün də davam edir. Demokratiya nəzəriyyəçiləri belə hesab edirlər ki, Bərabərlik prinsipi müasir sivilizasiyanın yaranmasının və inkişafının başlıca şərtidir.

Qeyd edək ki, insanlar arasında dinc yanaşı yaşamanın zəruri şərti kimi Bərabərliyin qəbul olunması heç də bütün dünya mədəniyyətlərinə xas deyil. Məsələn, ənənəvi Çin cəmiyyətində (və ümumiyyətlə qədim Şərqdə) müəyyən iyerarxiya mövcud idi: cəmiyyətdə aşağı mövqe tutan şəxs özündən yuxarıda duranlara ehtiram göstərməli idi. Ehtiram qayda-qanunları yuxarıda dayananların da qarşılıqlı hörmət izhar etmələrini nəzərdə tuturdu. Bu qaydalara əməl etməyən "qiyamçı" cəmiyyətin təqiblərinə məruz qalırdı.

Cəmiyyətin belə bərabər və "daha bərabər" (C.Oruell) şəxslərə bölgüsünün qalıqlarını bu gün Azərbaycanda da müşahidə etmək olar. Məsələn, kütlənin sevimlisi olan bir çox şəxslərə və hətta onların övladlarına digərlərinə nisbətən daha çox ixtiyar verilir; onlar əmindirlər ki, öz insani keyfiyyətlərinə və statusuna görə müəyyən imtiyazlara malikdirlər, ətrafdakılar isə, müvafiq olaraq, onlara təbii ehtiram göstərməlidirlər.

Bununla əlaqədar, Amerika prezidentlərinin təhlükəsizlik xidməti başçısının bizdə çap olunmuş memuarlarından parçalar yada düşür. O xatırlayır ki, mühüm sənədlərlə dolu ağır metal portfeli özü ilə daşımağa adət etmiş Kissinceri səfərlərdən birində müşayiət etməli olur. Onların əyləşdiyi avtomobil təyin olunmuş yerə yaxınlaşır. Kissincer avtomobildən düşərək sürətlə binanın girişinə doğru addımlayır və bu zaman tam arxayındır ki, cangüdəni "təbii ehtiram" göstərərək ağır portfeli onun əvəzinə daşıyacaq. Lakin memuar müəllifinin yazdığına görə, şefin portfelini daşımaq onun vəzifəsinə daxil deyildi və Kissincerin özünə arxayınlığından xoşlanmayan cangüdən portfeli götürmür. Kissincer, bir kəlmə də demədən, portfelin ardınca qayıtmalı olur. Bu hadisə daha iki dəfə təkrar olunur və son nəticədə ABŞ-ın Dövlət Katibi portfelini özü daşımalı olur.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Cəmiyyətdə əzəldən bərabərliyin olmamasını ənənəvi hind münasibətlərinin nümunəsi daha bariz nümayiş etdirir: burada cəmiyyət ali və aşağı kastalara bölünmüşdür ki, onların nümayəndələrinə bir-birilərinə toxunmaq belə qadağandır.

Məhz bu səbəbdən hind cəmiyyətinin məzlum təbəqələri, "Allahdan başqa Allah yoxdur; insanlar üzərində yalnız bir hökmran - Allah vardır" prinsiplərini bəyan edən İslamın ilk və fəal ardıcıllarından birinə çevrildilər. İslam dininin ehkamlarına görə, Allah bütün insanları bərabər yaradıb və heç kəsin başqasının taleyini həll etmək hüququ yoxdur.

Təkallahlılıq, bütün insanları bərabər, hətta qohum (bütün insanlar Adəm ilə Həvvanın törəməlidir) yaratmış Tanrı ideyası qədim dövrlərdə Bərabərlik uğrunda mübarizənin başlıca ideoloji əsasını təşkil edirdi.

Demokratik ənənələr öz köklərinə görə, insanların Allah qarşısında Bərabərliyini nəzərdə tutan təkallahlılıqdan irəli gəlir. Allah insanlara Həyat və Azadlıq bəxş edir, "Allahın insana verdiyi Ömür və Azadlığı heç kim ala bilməz"..., insan - Allah məxluqu toxunulmazdır və bu da öz əksini insan haqları bəyannamələrində tapıb.

"Özünə rəva bilmədiyini başqasına da etmə" Qızıl qanununun əsasını təşkil edən Bərabərlik prinsipi Allah və bir-biriləri ilə öz münasibətlərini qarşılıqlı razılaşma əsasında qurmaq istəyənlər üçün xüsusilə əhəmiyyətlidir.

> *İnsanlar Allahın hamını bərabər yaratdığını və heç kəsin başqalarını zorla özünə tabe etmək hüququnun olmadığını qəbul edirlərsə;*
>
> *insanlar hesab edirlərsə ki, maraqları uzlaşdırmaq və münaqişələri həll etmək üçün (vahid Allahın bütün peyğəmbərlərinin əməl etdiyi) Qızıl qanuna əsaslanmaq lazımdır, başqa sözlə desək, bu vacib məsələlərdə onlar eyni rəydədirlərsə,*
>
> *o zaman insanlar özünüidarə qaydaları və yalnız onların razılığı ilə idarə edəcək hökumətin könüllü yaradılması haqqında da razılığa gələ bilərlər.*

Məhz bu müddəalar "Mayflower Comract"ın, sonra isə ABŞ Konstitusiyasının əsasını təşkil etmişdir...

Din mövzusuna toxunarkən, dinin bizim cəmiyyətdəki indiki vəziyyəti üzərində dayanmaya bilmirəm. 70 illik təqiblərdən sonra, demokratik mübarizə nəticəsində dindarlarımız vicdan və ibadət azadlığı əldə ediblər. Bu gün onlar öz hüquqlarından istifadə edərək insanlar arasında yüksək mənəvi və sosial dəyərlər təbliğ edirlər.

Lakin dini fəallar arasında elələri də var ki, bir ideologiyanın diktatını yalnız özləri məqbul saydıqları ideologiyanın diktatı ilə əvəz etmək istəyirlər. Belələrinə kommunizmin acı təcrübəsini xatırlatmaq istəyirəm: heç bir ideologiya və din zorla bərqərar edilə bilməz! Digər tərəfdən, bütün cəmiyyət üçün vahid ideologiya və din mövcud ola bilməz. Məhəmməd Peyğəmbər islamın zorakı yolla yayılması əleyhinə çıxırdı. Peyğəmbər hesab edirdi ki, islamın mahiyyəti təkcə ibadətdə deyil, həmçinin insan-ları bərabər yaradıb, onlara Azadlıq və Vicdan bəxş etmiş Allaha inam gətirib, xeyirxah işlər görməkdə, özünə rəva bilmədiyini başqalarına da eləməməkdədir.

Axı, həqiqətən də, tamamilə eyni olan iki adam tapmaq mümkün deyil. Səmimi soruşsaq, məlum olacaq ki, hər kəsin qəlbində öz Allahı var, hər bir kəs Allahı özü bildiyi kimi anlayır və qəbul edir.

Başqalarını "dindar" həyat tərzi (onların öz fikrincə) keçirməyə, özləri ilə birlikdə bayram və matəm günlərini qeyd etməyə məcbur edənlər Allah qarşısında böyük günah işlədirlər. Çünki hər bir insan dini necə başa düşüb, ona necə əməl etməsi barədə Tanrı qarşısında özü cavab verəcək.

## 3. QƏDİM YUNANISTANDA DEMOKRATİYA VƏ TOTALİTARİZM

> *Çox az adam siyasətçi olmaq iqtidarındadır, lakin siyasətçilərin əməllərini qiymətləndirməyə hamının haqqı var.*
>
> *Afinalı Perikl*

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

**Əvvəlcə təriflər**

TOTALİTARİZM - insan həyatının bütün sahələrinə dövlətin müdaxiləsi.

AVTORİTARİZM elə haldır ki, siyasətindən başqa həyatın bütün sahələrində dövlət cəmiyyətə sərbəstlik verir (hakimiyyətdən başqa hər şey).

*“Demokratik Afinanın lideri Periklin aşağıda təqdim olunan nitqi sadəcə proqram sənədi deyil. Bu həm müdafiə, həm də, ola bilər ki, hücumdur. O, təkcə Spartanın donmuş tayfa quruluşuna deyil, eləcə də, Afina totalitar dairəsi və ya “totalitar cəmiyyətinə” qarşı, “Ata dövlət” uğrunda hərəkata qarşı çevrilmişdir. Bu nitq köhnəlmiş, ənənəvi dövlət quruluşu üsuluna qarşı edilmiş ən qədim və eyni zamanda, ola bilsin, ən təsirli çıxışdır.” (K.Popper).*

(H.H.) Əlavə də edək ki bu nitq demokratiya və liberalizm prinsiplərini bizə çatdırmış ilk sənədlərdəndir, mətndə bu prinsiplər mənim tərəfimdən fərqlənib.

**Afinalı Perikl - azad cəmiyyətin müdafiəsinə dair**
***(qəbirüstü nitq, təxminən e.ə. 430-cu il)***

“... Bizim şəhəri bir ovuc adam deyil, xalqın əksəriyyəti idarə etdiyi üçün, dövlət quruluşumuz xalq idarəçiliyi (demokratiya - H.H.) adlanır. Qanuna görə şəxsi işlərdə hamı eyni hüquqlardan istifadə edir. Dövlət işlərinə gəldikdə isə, ali dövlət vəzifələrinə müəyyən təbəqəyə məxsusluğu ilə deyil, şəxsi fəda-karlıqları ilə fərqlənənləri irəli sürürlər. Yoxsulluq ... ali vəzifə tutmağa mane olmur...

Biz dövlətimizdə azad yaşayırıq və gündəlik həyatda qarşılıqlı şübhələrdən çəkinirik: hərəkətlərində şəxsi maraqlarını rəhbər tutan qonşuya ədavət bəsləmirik...

İctimai həyatda qanunları pozmuruq... hakimiyyət və qanunlara itaət edirik...

Biz azad yaşayırıq... bununla yanaşı, bizimlə bərabər olan rəqibə qarşı cəsarətlə mübarizə aparırıq.

Yoxsulluğunu etiraf etmək bizdə heç kəs üçün rüsvayçılıq sayılmır, lakin insanın öz əməyi ilə yoxsulluqdan xilas olmağa çalışmamasını ən böyük rüsvayçılıq hesab edirik.

Çox az adam siyasətçi olmaq iqtidarındadır, lakin siyasətçilərin əməllərini qiymətləndirməyə hamının haqqı var.

Biz heç də fikirləşmirik ki, açıq müzakirə dövlət işlərinin gedişinə xələl gətirə bilər. Əksinə, biz hesab edirik ki, lehinə və əleyhinə olan çıxışların köməyi ilə qabaqcadan hazırlıq görmədən qərar qəbul etmək düzgün deyil.

Azadlığı xoşbəxtlik, igidliyi isə azadlıq hesab edin və hərbi təhlükələrin üzünə dik baxın...

Bir sözlə, mən israr edirəm ki, şəhərimiz bütün Elladanın məktəbidir və güman edirəm ki, bizlərdən hər birimiz ən müxtəlif həyat şəraitində asanlıqla və incəliklə öz şəxsiyyətini göstərə bilər...”

**Afinalı Platon - açıq cəmiyyətin əleyhinə *(təxminən e.ə. 350-ci il)***

...”Burada ən başlıcası odur ki, heç kəs - nə kişi, nə qadın - heç vaxt başçısız qalmamalıdır. Nə ciddi işlərdə, nə də oyunlarda heç kəs özünü istədiyi kimi hərəkət etməyə alışdırmamalıdır. Xeyr, həmişə - həm müharibə, həm də sülh vaxtı - başçının nəzarəti altında və onun göstərişlərinə əməl etməklə yaşamaq lazımdır. Hətta ən əhəmiyyətsiz xırdalıqlarda belə, başçının göstərişlərini rəhbər tutmaq tələb olunur. Məsələn, onun ilk əmri ilə yerində durmalı, irəli getməli, hərəkətlərə başlamalı, yuyunmalı, yemək yeməli, mühafizə vəzifələrini və tapşırıqlarını yerinə yetirmək üçün gecə ikən yataqdan durmalı... Bir sözlə, qoy insan qəlbi başqalarından ayrılıqda nəsə etməyin mümkünsüzlüyü vərdişlərini qazansın”.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

# 4. LİBERALİZMİN BEŞİYİ - İNGİLTƏRƏ

Birinci fəsildə qeyd olunduğu kimi, qədim Yunan Demokratiyasına (əksəriyyətin hakimiyyətinə) təminat verilmiş insan haqları haqqında müddəa daxil deyildi, belə Demokratiya şəxsi Azadlığı məhdudlaşdıra bilərdi.

Stalin və Hitler rejimlərinin, ikinci dünya müharibəsindən sonra isə - sosialist düşərgəsi ölkələrinin timsalında bizə yaxşı məlumdur ki, "əksəriyyətin hakimiyyəti" kimi çıxış edən Demokratiya çox vaxt əksəriyyətin diktaturasına çevrilir. Azadlıqsız Demokratiyanı bu gün keçmiş SSRİ respublikalarında, o cümlədən Azərbaycanda da müşahidə etmək mümkündür. Bütün bu rejimlərdə əhalinin əksəriyyətinin seçib müdafiə etdiyi rəhbərlər belə hesab edirlər ki, xalq tərəfindən qanuni yolla seçildikdən sonra onlar qanunlardan və ayrıca fərdin haqlarından yüksəkdə dura bilərlər (təəssüf ki, bizdə seçicilərin əksəriyyəti də belə düşünür).

Əksəriyyətin biganəliyi və hətta sükutedici təqdiri şəraitində baş alıb gedən qanunsuz həbslər, kütləvi təqiblər, mülkiyyətin müsadirəsi, azadfikirliliyə qoyulmuş yasaqlar - bu rejimlərdən çoxunun gündəlik reallığıdır. Bəli, biz hələ çox şey etməliyik ki, Demokratiya Azadlığımızı tapdamasın, hər iki ideya bir-birini tamamlasın...

**"Krallığımızın bütün azad insanlarına..."**

Təmin edilmiş İnsan Haqları uğrunda mübarizənin tarixi Demokratiya uğrunda mübarizə tarixindən daha gəncdir, cəmisi 800 yaşı var ibarətdir. Demokratiyanın vətəni Qədim Yunanıstandırsa, Liberalizmin (təmin edilmiş insan Haqları) vətəni tam hüquqla orta əsr İngiltərəsi hesab olunmalıdır. Məhz burada 1215-ci il iyunun 15-də Rannimid qəsəbəsində baş vermiş hadisələr, insan Haqları uğrunda mübarizə tarixinin başlanğıc nöqtəsi kimi qəbul olunub. O zamandan indiyə kimi hər bir fərdin şəxsi, siyasi və sosial haqları uğrunda mübarizə həqiqətən ümumdünya miqyası almışdır...

Kral Con Plantaqenet (tarixi romanlardan bizə tanış olan Şir ürəkli Riçardın kiçik qardaşı) ağılsız, israfçı və qayğısız surətdə hökmranlıq edirdi. Hərəkətləri ilə o, təkcə xalqı deyil, həm də imtiyaz və mülkiyyətlərinə qəsd etdiyi iri feodalları da özünə qarşı qaldırdı; Kralın ölkənin sərhədlərindən xaricdə hərbi mükəlləfiyyəti yerinə yetirmək tələbini feodallar həddən artıq hesab etdilər. Kralın özbaşınalığından hiddətlənmiş bir neçə nüfuzlu baron qoşun toplayaraq uğursuz danışıqlardan sonra onu ağır məğlubiyyətə uğratdılar.

Qələbədən sonra baronlar, həmişə olduğu kimi bacarıqsız despotu devirib hakimiyyətə "ədalətli kralı" gətirmədilər. Kenterberi arxiyepiskopu Stefan Lanqtonun köməyi ilə baronlar onların qədim imtiyazlarını təsdiq və təsbit edən sənəd hazırlayıb kralı məcbur etdilər ki, torpaq sahibkarlarından olan lordlara və ali ruhani nümayəndələrlə birlikdə Rannimiddə onu imzalasın.

Həmin sənəd insan Haqları, kral hakimiyyətinə qoyulmuş məhdudiyyətlər, hüquqi norma və prosedura-ların siyahısından ibarət idi; bizdə Azadlıqların Böyük Xartiyası kimi tanınmış Magna Carta adlandırılan bu sənəd 63 bənddən ibarət olub, *Krallığımızın bütün azad insanlarına* sözləri ilə başlanırdı.

Magna Carta-ya görə bundan belə baronların razılığı olmadan kral heç bir mühüm siyasi və iqtisadi qərar qəbul edə bilməzdi...

Cek və Adam Livlilər (J. & A.Lively, Democracy in Britain, 1994) yazırlar ki, bu sənədi müasir mənada insan Haqları Bəyannaməsi adlandırmaq olmaz. Magna Carta - yalnız konkret situasiyaların həlli üsullarının siyahısıdır, orada öz əksini tapmış hüquqların əksəriyyəti isə yalnız baronlara aiddir. Bundan əlavə, həmin müəlliflər hesab edirlər ki, Magna Carta-nın mətni konservativdir, o, yeni idarə üsulunu bəyan edən dildən daha çox, mövcud hüquqları təsdiq edən bərpa dilində yazılıb...

Bütün bunlara baxmayaraq, həmin sənədin liberalizmin inkişafında əhəmiyyəti çox böyükdür. Magna Carta konstitusiya tipli hakimiyyətin əsasına çevrildi. Sonralar inadlı mübarizə nəticəsində yalnız baronlara aid olan hüquqlar ölkənin bütün vətəndaşlarına aid edildi, sənədin bəzi müddəaları isə ölkənin hüquqi sisteminin əsasına çevrildi. 1295-ci ildə kral I Eduardın hakimiyyəti dövründə fəaliyyətə başlamış ilk İngiltərə parlamentinin üzvləri qərarların qəbulu zamanı daim Magna Carta-ya müraciət edirdilər.

Müttəhimlə eyni statusu olan andlıların qərarı olmadan heç kəs məhkum oluna bilməz - bu müddəa demokratik məhkəmənin əsaslarından birinə çevrildi.

Bu gün demokratik ölkələrdə qəbul edilmiş "vergiləri yalnız vergi ödəyənləri təmsil edən parlament tətbiq edə bilər" qaydası öz başlanğıcını Magna Carta-nın belə bir müddəasından götürür ki, torpaq sahibkarları - lordların razılığı olmadan kral yeni vergilər tətbiq edə bilməz.

Magna Carta-nın taleyi asan olmayıb. Sənədin imzalanmasından dərhal sonra kral Con baronlarla sazişi pozdu və ölkəni yenidən vətəndaş müharibəsi alovu bürüdü. Lakin kral Conun varisi - III Henrix Magna Carta-nın qüvvəsini yenidən bərpa etdi və 1225-ci ildə krallığın bütün münaqişə edən tərəfləri sənədi son redaksiyada qəbul etdilər.

Krallar sonralar da öz hakimiyyətlərini asanlıqla bölüşdürmək istəmirdilər və buna görə də istibdada qarşı mübarizə davam edirdi. 1689-cu ildə "Şanlı inqilabın" qələbəsindən sonra parlament Magna Carta ruhu ilə səsləşən yeni sənəd - "Hüquqlar haqqında Bill" ( Bill of Rights ) qəbul etdi. Həmin sənəd parlamentin taxt-tacdan üstün olduğunu təsdiq edir və beləliklə də, ölkədə konstitusiyalı monarxiya quruluşunu bərqərar edirdi...

O zaman parlament ölkənin bütün əhalisini təmsil etmirdi. Britaniyanı hələlik nə demokratik, nə də azad ölkə adlandırmaq olmazdı. Əhalinin yoxsul təbəqələri, eləcə də bəzi etnik azlıqlar və qadınlar səsvermə hüququndan və digər mühüm hüquqlardan məhrum idi. Maraqlıdır ki, məşhur iqtisadçı Adam Smit (1723-1790) Edinburq universitetinin professoru olsa da, səsvermə hüququna malik deyildi... 1876-cı ildə həyata keçirilmiş böyük seçki islahatı nəticəsində səsvermə hüququ olan şəxslərin sayı iki milyon nəfərədək artdı. Böyük Britaniyada (ABŞ-da olduğu kimi) ümumi seçki hüququ uzun mübarizə-dən sonra yalnız bizim yüzilliyin 20-ci illərində tətbiq olundu. Böyük Britaniya qadınları sonuncu olaraq seçki hüququna nail oldular (məhz nail oldular, yuxarıdan almadılar).

Təqribən səkkiz əsr ərzində zadəganlar, varlı tacir və sənayeçilər, muzdlu fəhlə və qulluqçular, etnik və dini azlıqlar, qadınlar addım-addım öz Hüquq və Azadlıqlarını genişləndirirdilər. Belə bir cəmiyyətdə hər hansı bir qrup və ya ayrıca fərdin tarixinə, həyat tərzinə çevrilmiş Haqlarını məhdudlaşdırmağa cəhd göstərmək belə mümkün deyil.

Bizim üçün Konstitusiyamıza yazılmış Haqlar uğrunda mübarizə yenicə başlayır və bu mübarizə nə asan, nə də qısa müddətli olmayacaq və qoy şəxsi, siyasi azadlıqlar uğrunda Britaniya mübarizlərinin inadkarlığı bizim üçün ilhamverici nümunə olsun.

***Magna Carta* (1215-ci il)**

Allahın mərhəməti ilə İngiltərə kralı, İrlandiya hökmdarı, Normandiya və Akvitaniya hersoqu, Anju qrafı Con, öz arxiyepiskopları, yepiskopları, abbatları, qrafları, baronları, hakimləri, meşəbəyləri, şerifləri, idarəçiləri, nökərləri, bütün qulluqçu və sadiq təbələrinə müraciət edir:

Sizi salamlayıram...

...Krallığımızın bütün azad insanlarına özümüzün və varislərimizin adından əbədi olaraq aşağıda göstərilən Azadlıqları onların və varislərinin sahibliyi və mühafizəsinə bəxş edirik:

... (12) Krallığın Ümumi Şurasının razılığı olmadan bizim krallıqda heç bir vergi və mükəlləfiyyətlər tətbiq oluna bilməz...

(20) Kiçik cinayət törətmiş azad insan ancaq həmin cinayətin dərəcəsinə görə cəzalandırılacaq, ciddi cinayətə görə də həmin qaydada, amma onu öz statusundan məhrum etməmək şərti ilə.

Beləliklə, kral məhkəməsinin rəhmi ilə üzləşmiş tacir öz mallarından, əkinçi isə öz torpaqlarından məhrum olunacaq.

Bu cəzalardan heç biri qonşuluqda yaşayan möhtərəm və hörmətli adamların and altında qəbul etdikləri qərar olmadan verilə bilməz...

(39) Heç bir azad insan onunla bərabərhüquqlu insanların qanuni hökmündən və ya ölkə qanunlarından savayı heç bir əsasla tutulub həbs edilə, hüquq və ya mülkiyyətindən məhrum oluna, qanundan kənar qoyula, sürgün edilə, hər hansı yolla cəmiyyətdəki mövqeyindən məhrum oluna bilməz, eləcə də biz ona qarşı güc işlətməyəcəyik etməyəcəyik və başqalarını da buna təhrik etməyəcəyik.

(40) Hüquq və ya ədaləti heç kəsə satmayacaq, rədd cavabı verməyəcək və təxirə salmayacağıq.

(41) Bütün tacirlər sağ-salamat və qorxusuz İngiltərəyə gedib-gələ bilərlər; ticarət məqsədilə qədim və qanuni rüsumlara uyğun qanunsuz vergilərdən azad şəkildə quru, su yolları ilə ölkəni səyahət edə və ya burada yaşaya bilərlər.

Fəqət bu, müharibə dövrünə, bizimlə vuruşan ölkələrin tacirlərinə aid deyil. Biz və ya baş hakimimiz bizimlə vuruşan ölkədə tacirlərimizlə necə rəftar edildiyini müəyyənləşdirənə kimi, hər belə tacir, onun şəxsiyyətinə və mülkiyyətinə ziyan toxunmadan müharibənin başlanğıcında tutulub saxlanılmalıdır. Tacirlərimiz sağ-salamatdırlarsa, onda onlara da xətər toxunmamalıdır.

***Bill of Rights*** **(Hüquqlar Haqqında Bill) (1689-cu il)**

... Bununla yuxarıda adı çəkilən dini və dünyəvi lordlar, eləcə də üçüncü zümrə nümayəndələri, onların mövqeyini təsdiq edən məktublara və seçkilərin onlara verdiyi hüquqa uyğun olaraq burada millətin tam və azad nümayəndəliyində toplanıb yuxarıda qeyd olunan məqsədlərə çatmaq üçün xeyirxah niyyətləri tam ciddiliklə nəzərə alaraq, ilk növbədə, onların qədim Hüquq və Azadlıqlarının bərpası və müdafiəsi məqsədilə belə hərəkət edərək, bəyan edirlər:

1. Parlamentin razılığı olmadan kral hakimiyyətinin qanunları və ya onların həyata keçirilməsini dayandırmaq hüququnu mənimsəməsi qanunsuzdur...

4. Parlamentin icazəsi olmadan müstəsna hüquq iddiası ilə taxt-tacın ehtiyacları və xərcləri üçün pul toplamaq qanunsuzdur...

5. Subyektin krala petisiya (müraciət) vermək hüququ var və buna qarşı olan bütün maneələr qanunsuzdur.

6. Sülh şəraitində parlamentdən icazəsiz krallıqda nizami ordu saxlamaq və onu gücləndirmək qanunsuzdur...

8. Parlament üzvlərinin seçkisi azad olmalıdır.

9. Parlamentdə nitq və fikir söyləmək azadlığı məhkəmədə və ya parlamentdənkənar hərhansı bir yerdə təqib oluna və töhmətləndirilə bilməz...

11. Andlılar lazımi qaydada tərtib olunub seçilməlidirlər və Böyük Xəyanət (dövlət cinayəti - H.H) haqqında məsələyə baxılarsa, onlar torpaq sahibkarları olmalıdırlar.

12. Məhkəmənin hökmü yoxdursa, cərimələr qanunsuzdur.

13. Parlament bütün şikayətləri təmin etmək, qanunları qorumaq, möhkəmləndirmək və onlara dəyişikliklər etmək üçün tez-tez toplanmalıdır.

Və onlar təntənəli surətdə bildirir, tələb və təkid edirlər ki, yuxarıda sadalananlar hamıya və hər kəsə, onların alınmaz Hüquq və Azadlıqları kimi şamil olunur; bu müddəalardan hər hansı birində insanlara ziyan gətirən çıxışlar, məhkəmə qərarları, hərəkət və əməllər nəticə kimi göstərilə və ya nümunə hesab oluna bilməz.

* * *

.